Citation: Qəzənfərqızı, A. (2026). Xaqani Şirvani yaradıcılığında folklor-mifoloji kodların Rəqəmsal Humanitar Elmlər kontekstində təhlili. *"Sələflər və xələflər: Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri" mövzusunda Respublika elmi-nəzəri konfransının materialları* (s. 41–46). Bakı: Elm və Təhsil.

XAQANİ ŞİRVANİ YARADICILIĞINDA FOLKLOR MİFOLOJİ KODLARIN RƏQƏMSAL HUMANİTAR ELMLƏR KONTEKSTİNDƏ TƏHLİLİ

Dos. Aynur Qəzənfərqızı

Xəzər Universiteti Dillər və Ədəbiyyatlar Deparetamentinin müəllimi, Mədəni Antropologiya və Folklor İnstitutunun koordinatoru.

ORCİD: 0000-0003-1415-2518
aynurqezenferqizi@yahoo.com

Özət

Məqalədə Xaqani Şirvani yaradıcılığında mövcud olan folklor-mifoloji elementlərin rəqəmsal humanitar elmlərin metodoloji imkanları əsasında təhlili nəzərdən keçirməyi planlayırıq. Klassik Şərq poeziyasının görkəmli nümayəndəsi Xaqaninin əsərlərində mifoloji təfəkkür, arxaik simvolika, kosmoqonik təsəvvürlər və kollektiv yaddaş elementləri geniş şəkildə əks olunmuşdur. Tədqiqatın əsas məqsədi şairin poetik mətnlərində yer alan folklor kodlarının müasir rəqəmsal analiz üsulları vasitəsilə yenidən oxunması və sistemləşdirilməsidir. Araşdırmada müqayisəli-tipoloji metod, semiotik yanaşma, mətn analizi və rəqəmsal humanitar elmlərin kəmiyyət əsaslı mətn təhlili (computational text analysis) və semantik şəbəkə modelləşdirilməsi metodologiyası əsas götürülmüşdür. Xaqani poeziyasında rast gəlinən od, quş, göy, su, işıq və kainat simvolları folklor yaddaşı və mifoloji dünya modeli kontekstində təhlil edilir. Eyni zamanda, rəqəmsal mətn korpusları, açar söz sıxlığı və semantik əlaqələr əsasında klassik poetik strukturun yeni interpretasiya imkanları müəyyənləşdirilir. Məqalədə göstərilir ki, Xaqani yaradıcılığı yalnız klassik poetik irs nümunəsi deyil, həm də xalq yaddaşının və mifoloji düşüncənin daşıyıcısı kimi çıxış edir. Rəqəmsal humanitar elmlərin tətbiqi isə bu irsin daha sistemli şəkildə araşdırılmasına, folklor qatlarının görnməyən semantik əlaqələrinin üzə çıxarılmasına şəriat yaradır. Tədqiqat nəticəsində klassik Azərbaycan ədəbiyyatının rəqəmsal müstəvidə yenidən təhlili və folklorşünaslıqla inteqrasiyası istiqamətində yeni elımi yanaşmalar irəli sürülür.

Açar szölər: Xaqani Şirvani, folklor-mifoloji kod, rəqəmsal humanitar elmlər, rəqəmsal folklorşünaslıq, simvolika, klassik mətnlər.

ANALYSIS OF FOLKLORIV-MYTHOLOGICAL CODES IN THE CREATIVITY OF KHAGANI SHIRVANI IN THE CONTEXT OF DIGITAL HUMANITIES

Assoc.Prof. Aynur Gazanfargizi

Lecturer at Khazar Unviersity, Department of Languages and Literatures; Coordinator of the Institute of Cultural Anthropology and Folklore.

Abstract

This article aims to examine the folkloric and mythological elements present in the works of Khagani Shirvani through the methodological capabilities of digital humanities. Mythologica; thinking, archaic symbolism, cosmogonic concepts, and elements of collective memory are extensively reflected in the works of Khagani, an outstanding representative of classical Eastern poetry. The primary objective of this research is to re-read and systemize the folkloric codes within the poet's poetic texts using modern digital analysis methods. The study is based on the comparative-typological method, semiotic approach, text analysis, as well as quantitative-based computational text analysis and semantic network modeling methodologies from the digital humanities. Symboils of fire, bird, sky, water, light, and the universe found in Khagani's poetry are analyzed within the context of folklore memory and the mythological world model. Concurrently, new possibilities for interpreting the classical poetic structure are identified based on digital text corpora, keyword density, and semantic relations. The article demonstrates that Khagani's creativity is not only and example of classical poetic heritage, but also serves as a carrier of folk memory and mythological thought. The application of digital humanities, in turn, facilitates a more systematic inverstigation of this heritage and reveals the hidden semantic connections of folklore layers. As a result of research, new scientific approaches are proposed for the re-analysis of classical Azerbaijani literature on a digital platform and its integration with folklore studies.

Keywords: Khagani Shirvani, folkloric-mythological code, digital humanities, digital folklore studies, symbolism, classical texts.

Giriş

Son onilliklərdə rəqəmsal texnologiyaların sürətli inkişafı humanitar elmlərin metodoloji strukturunda ciddi dəyişikliklərə səbəb olmuçşdur. Rəqəmsal humanitar elmlər (Digital

Humanities) humanitar tədqiqatların rəqəmsal texnologiyalarla inteqrasiyası nəticəsində formalaşan multidissiplinar sahə kimi mətnlərin, mədəni irsin və tarixi mənbələrin yeni analitik üsullarla araşdırılmasına imkan yaradır (Budrick et al., 2012, s. 7; Schiberman, Siemens və Unsvort, 2016, s.17-18). Bu yanaşmalar mətn korpuslarının yaradılması, semantik analiz, şəbəkə vizuallaşdırılması və süni intellekt əsaslı modelləşdirmə kimi metodlarla klassik humanitar elmlərin imkanlarını genişləndirir. Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi Xaqani Şirvani zəngin peotik irsi ilə Şərq ədəbi-fəlsəfi düşüncəsində xüsusi yer tutur. Onun yaradıclığı həm yüksək bədii-estetik dəyəri, həm də mifoloji və folklorik elementlərin qorunması baxımından diqqət çəkir. Tədqiqatlarda qeyd olunur ki, Xaqani poeziyasında arxaik simvolika, kosmoqonik təsəvvürlər və xalq yaddaşına aid motivlər geniş şəkildə öz əksini tapmışdır (Əliyev, 2021, s.43-44). Folklor və yazılı ədəbiyyat arasındakı əlaqə Azərbaycan ədəbiyyatşübaslığında mühüm tədqiqat istiqamətlərindən biri kimi çıxış edir. Araşdırmalar göstərir ki, folklor motivləri yazılı ədəbiyyatda transformasiyaya uğrayaraq yeniu semantik qatlar yaradır və bu proses mədəni yaddaşın davamlılığını təmin edir (Qasımova, 2020, s. 11-12). Xüsusilə, Şirvan ədəbi mühitində formalaşan poetik ənənə folklor və yazılı söz sənəti arasında güclü qarşılıqlı təsir modeli formalaşdırmışdır.

Müasir dövrdə rəqəmsal humanitar metdolar klassik mətnlərin daha sistemli şəkildə təhlilinə imkan yaradır. Mətn korpuslarının yaradılması, açar sözlərin tezlik analizi və semantik şəbəkələrin qurulması vasitəsilə poetik mətnlərdə gizli qalan strukturlar üzə çıxarılır. Bu baxımdan Xaqani Şirvani yaradıclığı rəqəmsal folklorşünaslıq və mətn analizi üçün əlverişli tədqiqat obyektidir. Tədqiqatın əsas məqsədi Xaqani Şievani yaradıcılığında folklor-mifoloji kodları müəyyənləşdirmək, onların poetik funksiyalarını araşdırmaq və rəqəmsal humanitar elmlər çərçivəsində interpretasiya imkanlarını analiz etməkdir. Bu yanaşma klassik Azərbaycan ədəbiyyatının rəqəmsal metodlarla öyrənilməsinə yeni perspektivlər qazandırır.

Tədqiqatın elmi yeniliyi: mövcud ədəbiyyatşünaslıq tədqiqatlarında Xaqani yaradııclığı əsasən filoloji-estetik və tarixi-müqayisəli metodlarla araşdırılmışdır. Bu tədqiqat həmin ənənəvi yanaşmaları rəqəmsal humanitar elmlərin korpus əsaslı və semantik şəbəkə metidları ilə tamamlamaq məqsədi güdür. Araşdırmada klassik filoloji yanaşma ilə müasir korpus əsaslı və semnatik şəbəkə metodlarının inteqrasiyası həyata keçirilmişdir. Eyni zamanda, tədqiqat folklor və yazılı ədəbiyyat arasındakı əlaqəni rəqəmsal metodlarla izah etməyə çalışaraq Azərbaycan ədəbiyyatşünaslığında yeni metodoloji istiqamət formalaşdırır.

Korpus Təhlil Yanaşması və Tədqiqatın Metodoloji Əsasları

Təqiqatımızda klassik filoloji yanaşma ilə yanaşı rəqəmsal humanitar elmlərin əsas metodlarından biri olan korpus təhlil (corpus analysis) tətbiq olunmuşdur. Korpus təhlil müxtəlif mətnlərin rəqəmsal şəkildə toplanması və kompüter dəstəyi ilə sistemli şəkildə analiz edilməsini nəzərdə tutur. Bu yanaşma vasitəsilə mətnlərdə sözlərin tezliyi, birgə işlənmə strukturları, semantik əlaqələr və motivlərin paylanma modeli müəyyən edilir. Məruzədə rəqəmsal koprus

analizinin həyata keçirilməsi üçün Voyant Tools platformasından istifadə edilmişdir. Voyant Tools veb əsaslı, açıq çıxışlı (open-source) mətn analizi aləti olub, yüklənmiş mətn korpusunda söz tezliyi (word frequency), birgə işlənmə (collocation), kontekst analizi (keywords in context – KWIC) və tredn vizuallaşdırılması kimi funksiyaları avtomatik şəkildə yerinə yetirir (Sinclair & Rockwell, 2016). Xaqani divanının mətni (114,600 söz, 29,287 unikal söz forması) platforma daxil edilmiş od, su, quş, göy və yol kimi əsas mifoloji motivlər açar söz kimi müəyyənləşdirilmiş və onların korpus daxilindəki tezlik paylanması, kontekstual mühiti və semantik əlaqələri bu alət vasitəsilə təhlil edilmişdir. Araşdırmada qarşıya qoyulan vəzifələrin həlli məqsədilə interdissiplinar metodoloji yanaşmadan istifadə olunmuşdur. Bu çərçivədə peotik strukturun bədii xüsusiyyətləini öyrənən mətn analizi, simvolların mədəni-mifoloji semantikasını aşkara çıxaran semiotik yanaşma və şifahi ənənə ilə yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrini müəyyənləşdirən müqayisəli metdo rəqəmsal humanitar elmlərin alətləri ilə sintez edilmişdir. Korpus analizi, açar sözlərin tezlik hesabatı və semantik şəbəkələrin modelləşdirilməsini ehtiva edən rəqəmsal metodların tətbiqi klassik mətnləri yalnız xalis filoloji obyekt kimi deyil, həm də çoxölçülü analitik sistem kimi dəyərləndirməyə imkan verir.

Rəqəmsal analiz və Struktur Yanaşma

Müasir rəqəmsal humanitar metodlar bədii mətndəki struktur vahidlərinin mifoloji motivkərin yalnız bədii-estetik məna baxımından deyil, həm də kəmiyyət, statistika və struktur sabitliyi müstəvisində analizinə geniş imkanlar açır. Qlobal rəqəmsal humanitar elmlərin banilərindən sayılan Fransua Morettinin (Franco Moretti) “uzaqdan oxuma” (distant reading) prinsipləri ilə hesablama metodologiyası (Moretti, 2013, s. 48) bu tip arxaik simvolların struktur dayanıqlığını riyazi dəqiqliklə əsaslandırır. Azərbaycan ədəbiyyatşünaslığı və dilçilyində də klassik irsin rəqəmsal korpus prinsipləri ilə araşdırıması (Mahmudov, 2011, s. 92) Xaqani Şirvani yaradıcılığındakı folklor kodlarının şəbəkələşmə xüsusiyyətlərini yeni elmi müstıviyə çıxarır.

Koprus əsaslı təhlillər aydın şəkildə nümayiş etdirir ki, Xaqani mətnlərindəki simvollar təsadüfi elementlər olmayıb, müəyyən bir statistik tezlik və kontekstual sabitliklə təkrarlanır (Əliyev, 2021, s. 43). Semantik şəbəkə analizi vasitəsilə “od-nur”, “su-həyat”, “quş-ruh” kimi əlaqə cütlüklərinin mətndaxili iyerarxiyası və assosiativ baöları təsbit edilmişdir. Bu yanaşma Xaqani poeziyasını yalnız ədəbi mətn kimi deyil, həm də strukturlaçdırılmış semantik sistem kimi oxumağa imkan verir.

Rəqəmsal Humanitar Yanaşmanın Tətbiqi

Rəqəmsal humanitar elmlər klassik mətnlərin ənənəvi filoloji interpretasiyasını tamamlayan və genişləndirən yeni metodoloji istiqamət kimi çıxış edir. Bu yanaşma humanitar mətnlərin rəqəmsal korpuslar, məlumat analitikası və süni intellekt əsaslı modellərlə tədqiqini nəzərdə tutut və xüsusilə folklor və klassik ədəbiyyatın struktur qatlarının üzə çıxarılmasında mühüm rol oynayır (Əliyeva,

2022a, s. 14). Azərbaycan ədəbiyyatşünaslığında da son illərdə rəqəmsal metodların tətbiqinə maraq artmışdır. Tədqiqatçılar göstərirlər ki, mətnlərin korpus əsaslı analizi klassik poeziyada təkrarlanan motivlərin, simvol sistemlərinin və semantik əlaqəlıərin daha obyeltiv şəkildə müəyyənləşdirilməsinə imkan yaradır (Quliyev, 2021a, s. 35-36). Bu baxımdan Xxaqani Şirvani yaradıclığı rəqəmsal humanitar yanaşmalar üçün xüsusilə əlaverişli material kimi çıxış edir, çünki onun poeziyasında simvolik və mifoloji struktur yüksək sıxlıqla təkrarlanır.

Rəqəmsal koprus analizi vasitəsilə Xaqani divanında aparıcı elementlərin kəmiyyət göstəriciləri və onların kontekstual paylanma arealı müəyyən edilmişdir. Bu yanşma yalnız statistik nəticələr təqdim etmir, eyni zamanda motivlər arasındakı semantik əlaqələri də üzə çıxarır. Məsələn, semantik şəbəkə analizi göstərir ki, Xaqani poeziyasında "od" və "nur" motivləriu çox vaxt ilahi bilik və kosmik nizamla əlaqələndirilir (Məmmədova, 2020b, s. 72). Azərbaycan folklorşünaslığında da qeyd olunur ki, folklor motivləri yazılı ədəbiyyatın estetik qəliblərinə daxil olarkən şifahi yaddaş kodları fərdi bədii təfəkkürün süzgəcindən keçərək konseptual tranformasiyaya uğrayır *Xəlili, 2019, s. 45). Bu transformasiya prosesinin rəqəmsal metodlarla təhlili folklor və klassik ədəbiyyat arasındakı əlaqələrin daha sistemli şəkildə modelləşdirilməsinə şərait yaradır. Eyni zamanda, mətn xəritələndirmə (text mapping) və vizuallaşdırma metodları vasitəsilə Xaqani poeziyasında mifoloji strukturların semantik yayılma modeli qurula bilər (Səfərəliyeva, 2023a, s.56-57).

Xaqani Şirvani Yaradıclığında Folklor-Mifoloji Qat və Korpus Təhlil

Xaqani Şirvani yaradıclığı Azərbaycan klassik ədəbiyyatında folklor-mifoloji düşüncə sisteminin yazılı poeziyasındakı ən mürəkkəb və çoxqatlı təzahürlərindən biri kimi qiymətləndirilir. Təqiqatçılar qeyd edirlər ki, onun poetik dili yalnız saray poeziyası ənənəsinə deyil, həm də xalq düşüncəsinin arxaik qatlarına söykənir və bu səbəbdən Xaqani mətnləri "mifoloji kodlarla yüklənmiş poetik sistem" kimi çıxış edir (Qasımzadə, 2018, s.89). Azərbaycan ədəbiyyatşünaslığında aparılan araşdırmalara görə, Xaqani yaradıcılığında mifoloji simvollar sistemli şəkildə təkrarlanır və bu simvollar poetik mətnin semantik strukturunu formalaşdırır (Əliyev, 2017, s. 142-143).

Od motivi

Od Xaqani poeziyasında həm təmizlənmə, həm ilahi güc, həm də yaradıcı enerji simvolu kimi çıxış edir. Azərbaycan mifoloji sistemində od kültü qədim Tqürk düşüncəsi ilə bağlıdır və bu motivin Xaqani yaradıcılığöında davamlılığı tədqiqatçılar tərəfindən xüsusi vurğulanır (Xəlili, 2019, s. 52). Voyant Tools korpus analizi göstərir ki, "od" sözü divanda 113 dəfə işlənmiş ((hər 10,000 sözdə 9.9 dəfə) və 84 ayrı şeirdə rast gəlinmişdir. Bu göstərici tezlik baxımından digər motivlərə nisbətən aşağı olsa da, semantik şəbəkə analizinə görə od motivi ən yüksək konseptual yük daşıyan elementdir — "nur", "könül", "ilahi" və "eşq" sözləri ilə sıx kollokasiya əlaqəsi qurur

Su motivi

Su həyatın başlanöğıcı, dəyişmə, təmizlənmə və keçid metaforası kimi təqdim olunur (Babək, 2011). Folklorik düşüncədə su həm də ruhlar aləmi ilə əlaqə vasitəsi kimi çıxış edir. Xaqani poeziyasında su obrazı çox vaxt mənəvi təmizlənmə və zamanın axıcılığı ilə əlaqələndirilir (Məmmədova, 2020a, s. 78-79). Korpus analizinə görə “su” sözü 133 dəfə işlənmiş (hər 10,000 sözdə 11.6 dəfə) və 63 sənəddə təsadüf edilmişdir.

Quş motivi

Quş obrazı Azərbaycan folklorunda ruh, azadlıq və ilahi mesaj daşıyıcısı kimi geniş yayılmışdır. Xaqani yaradıcılığında quş motivi insan ruhunun yüksəlişi və metafizik dünya ilə əlaqəsini ifadə edir (Qulioyev, 2021b, s.42). Voyant Tools analizinin ən mühüm tapıntısı quş motivinin tezlik baxımından birinci yeri tutmasıdır: "quş" sözü 288 dəfə işlənmiş (hər 10,000 sözdə 25.1 dəfə), lakin 40 sənəddə — yəni nisbətən az şeirdə, lakin çox intensiv şəkildə istifadə edilmişdir. Bu göstərici “quş” motivinin Xaqani yaradıcılığında konsentrik, tematik cəhətdən mərkəzləşdirilmiş bir simvol olduğunu göstərir.

Göy motivi

Göy kosmik nizam və ilahi hakimiyyətin simvolu kimi qədim olunur. Klassik Şərq poeziyasında göy obrazı Allahın yaratdığı nizam və kainat harmoniyasını təcəssüm etdirir (Səfərəliyeva, 2023b, s. 62). Korpus analizinə görə "göy" sözü 135 dəfə işlənmiş (hər 10,000 sözdə 11.8 dəfə) və 75 sənəddə rast gəlinmişdir. Göy motivi geniş yayılma arealı ilə Xaqani poetic sisteminin ontoloji çərçivəsini formalaşdıran əsas simvollardan birinə çevrilmişdir.

Yol motivi

Yol motivi taleyin axarı, mənəi axtarış və insanın kamilləşmə prosesini ifadə edir. Bu motiv Xaqani pooeziyasında çoxqatlı semantik yük daşıyır və sufizm təsirləri ilə səsləşən kamillik ideyası ilə əlaqələndirilir (Əliyeva, 2022b, s. 28). Korpus göstəricilərinə görə “yol sözü 117 dəfə işlənmiş (hər 10,000 sözdə 10.2 dəfə) olmaqla ən geniş yayılmış motivdir: 86 sənəddə — yəni Xaqaninin demək olar ki, bütün şeirlərində müəyyən formada işlənmişdir. Bu universal yayılma “yol” motivinin Xaqani yaradıclığında birlkəşdirici, tranzitiv funksiyanı yerinə yetirdiyini göstərir.

Cədvəl 1. Xaqani Şirvani yaradıcılığında folklor-mifoloji motivlərin korpus göstəriciləri (Voyant Tools, korpus: 114,600 söz; nisbi tezlik = hər 10,000 sözdə işlənmə sayı)

Motiv	Ümumi say	Sənəd sayı	Nisbi tezlik (/10,000)	Mənəvi-semantik əlaqə	Dominant funksiyası
Quş motivi	288	40	25.1	Ruhun yüksəlişi, azadlıq, metafizik mesaj	Ruhani yüksəliş və vasitəçilik
Göy motivi	135	75	11.8	Kosmik nizam, ilahi idarəetmə	Ontoloji nizam və hakimiyyət
Su motivi	133	63	11.6	Həyat dövranı, emosional axıcılıq	Emosional və temporal axın simvolu
Yol motivi	117	86	10.2	Həyatın mənəvi yolu, kamillik	Mənəvi inkişaf və axtarış trayektoriyası
Od motivi	113	84	9.9	İlahi bilik, təmizlənmə, işıq konsepti	Metafizik enerji və transformasiya

Qeyd: Voyant Tools vasitəsilə aparılmış analizin keyfiyyət interpretasiyası əsasında tərtib edilmişdir.

Kopus analizinin Elmi İnterpretasiyası

Voyant Tools platforması vasitəsilə aparılmış korpus analizi 114,600 sözdən ibarət Xaqani divanı əsasında həyata keçirilmişdir. Əldə olunan kəmiyyət göstəriciləri bir sıra gözlənilməz elmi nəticələr ortaya qoymuşdur. Tezlik baxımından dominant motiv quş obrazıdır: bu motiv korpusda 288 dəfə işlənmiş, hər 10,000 sözdə 25.1 dəfə təkrarlanmışdır. Bu göstərici digər motivlərlə müqayisədə demək olar ki, iki dəfə yüksəkdir və quş motivinin Xaqani poetik sistemindəki mərkəzi mövqeyini kəmiyyət əsaslı şəkildə təsdiqləyir.

Göy (135 işlənmə, 11.8/10,000) və su (133 işlənmə, 11.6/10,000) motivləri tezlik baxımından bir-birinə çox yaxındır və birlikdə ikinci qrupu təşkil edir. Yol motivi 117 işlənmə sayına malik olmaqla (10.2/10,000) ən geniş yayılmış motivdir — 86 ayrı sənəddə işlənməsi onun Xaqani yaradıcılığında ən universal simvollardan biri olduğunu göstərir. Od motivi isə 113 işlənmə sayı (9.9/10,000) ilə tezlik cədvəlinin sonunda yer alır.

Bu nəticə ilk baxışda təəccüblü görünsə də, əslində mühüm bir elmi müşahidəni ortaya qoyur: tezlik göstəricisi ilə semantik mərkəzlik həmişə üst-üstə düşmür. Od motivinin az işlənmməsinə baxmayaraq yüksək semantik yük daşıması – ilahi bilik, təmizlənmə və metafizik enerji kimi arxaik mənalar – bu motivin Xaqani poetik sistemində kefiyyət baxımından dominant olduğunu göstərir. Bu tapıntı rəqəmsal humanitar elmlərdə “tezlik paradoksu” kimi adlandırılıa bilər: bir

elementin az işlənməsi onun poetik sistemdəki mərkəzi rolun inkar etmir, əksinə, onun seçici və məqsədyönlü istifadəsini göstərir.

Beləliklə, korpus analizi nəticəsində Xaqani yaradıcılığında folklor-mifoloji motivlər iki fərqli semantik ox üzərində qruplaşır: quş, göy və su motivləri kəmiyyə dominantlığı, od motivi isə semantik mərkəzlik baxımından öndə gəlir. Yol motivi hər iki oxu birləçdirən universal element funksiyasını yerinə yetirir.

Nəticə

Aparılan təhlil göstərir ki, Xaqani Şirvani yaradıclığı Azərbaycan klassik poeziyasında folklor-mifoloji düşüncıəni yazılı formaya tranfromasiyasının ən mühüm nümunələrindən biridir. Onun poetik mətnlərində müşahidə olunan simvolik sistem – od su, quş, göy və yol kimi arxaik motivlər – təkcə bədii ifadə vasitəsi deyil, eyni zamanda kollektiv mədəni yaddaşın kodlaşdırılmış strukturunu əks etdirən semantik mexanizm kimi çıxış edir.

Voyant Tools platforması vasitəsilə aparılmış korpus analizi (114,600 söz) bu strukturun kəmiyyət göstəriciləri ilə də təsdiqlənməsinə imkan vermişdir. Analiz nəticəsində müəyyən edilmişdir ki, quş motivi (288 işlənmə, hər 10,000 sözdə 25.1) tezlik baxımından ən dominant motivdir. Göy (11.8/10,000) və su (11.6/10,000) motivləri ikinci qrupu, yol (10.2/10,000) və od (9.9/10,000) motivləri isə üçüncü qrupu təşkil edir. Xüsusilə diqqət çəkən nəticə odur ki, od motivi tezlik baxımından sonuncu sırada yer almasına baxmayaraq, semantik şəbəkə analizinə görə ən yüksək konseptual yük daşıyan motivdir. Bu tapıntı "tezlik paradoksu" olaraq Xaqani yaradıcılığının daxili qanunauyğunluğunu ortaya qoyur.

Araşdırma nəticələri göstərir ki, bu motivlkər Xaqani poeziyasında təsadüfi və ya dekorativ elementlər deyil, əksinə, müəyyən dünyagörüş modelini formalaşdıran sistemli işarələr şəbəkəsidir. Xüsusilə mifoloji obrazların təkrarlanması və onların müxtəlif poetik kontekstlərdə yeni semantik çalarlar qazanması folklor düşüncəsinin yazılı ədəbiyyat daxilində davamlı transformsiyasını təsdiqləyir. Rəqəmsal humanitar elmlərin tətbiqi bu strukturun daha obyektiv və çoxölçülü şəkildə təhlilinə imkan yaratmışdır. Korpus əsaslı yanaşma, semantik şəbəkə analizi və motivlərin rəqəmsal xəritələndirilməsi kimi metodlar klassik mətnlərdə makro-səviyyəli struktur modellərini vizuallaşdırır. Bu yanaşma nəticəsində Xaqani poeziyası yalnız estetik və filoloji obyekt kimi deyil, həm də strukturlaşdırılmış mədəni məlumat sistemi kimi interpretasiya olunur. Nəticə etiabrilə, klassik ədəbiyyat və rəqəmsal humanitar metodların sintezi Azərbaycan ədəbiyyatşünaslığı üçün yeni tədqiqat istiqamətləri formalaşdırır və milli ədəbi irsin qlobal elmi diskursda daha effektiv təqdim olunmasına şərait yaradır.

Qaynaqlar:

Azərbaycan Milli Elmlər Akademiyası. (2026, February 6). Xaqani Şirvani və Azərbaycan lirik poeziyasının tarixi qaynaqları.

Babək, A. (2011). *Azərbaycan folklorunda su ilə bağlı inanclar*. Elm və təhsil.

Barnard Digital Humanities Center. (n.d.). What are the digital humanities? Retrieved June 3, 2026, from https://digitalhumanities.barnard.edu/what-are-DH

Əliyev, K. (2021). Azərbaycan ədəbiyyatında mifologizm və folklorizm problemləri. Bakı: Elm. (s. 43).

Əliyeva, A. (2022a). Rəqəmsal humanitar elmlər və klassik mətnlərin analizi. Bakı: Elm və Təhsil.

Əliyeva, A. (2022b). Rəqəmsal humanitar elmlərin Azərbaycan ədəbiyyatşünaslığında tətbiqi problemləri. Bakı: Elm və Təhsil.

Əlizadə, R. (2017). Azərbaycan klassik ədəbiyyatında mifoloji düşüncə. Bakı: Elm.

Hasilova, G. (2024). Reflection of ceremonial folklore in written literature. Studies on Oral Folk Literature of Azerbaijan, 1.

Mahmudov, M. (2011). Dilçiliyin riyazi metodları. Bakı: Elm və təhsil. (s. 92).

Məmmədova, L. (2020a). Azərbaycan folklorunda su və od kultu. Bakı: Elm.

Məmmədova, L. (2020b). Azərbaycan poeziyasında simvol və mifoloji struktur. Bakı: Elm.

Moretti, F. (2013). Distant Reading. London & New York: Verso Books. (s. 48).

Qaliboğlu, E. (2023). Mythological images and motifs in folklore materials collected from Mountainous Shirvan. Studies on Oral Folk Literature of Azerbaijan, 1.

Qasımzadə, F. (2018). Şərq poeziyasında simvol və metafora sistemi. Bakı: Nurlan.

Quliyev, R. (2021a). Korpus dilçiliyi və Azərbaycan poeziyası. Bakı: Bakı Universiteti Nəşriyyatı.

Quliyev, R. (2021b). Korpus dilçiliyi və klassik Azərbaycan poeziyasının analizi. Bakı: Bakı Universiteti Nəşriyyatı.

Səfərəliyeva, N. (2023a). Rəqəmsal mətn analizi metodları. Bakı: ADPU Nəşriyyatı.

Səfərəliyeva, N. (2023b). Rəqəmsal mətn analizi və humanitar elmlərdə yeni yanaşmalar. Bakı: ADPU Nəşriyyatı.

Sinclair, S., & Rockwell, G. (2016). Voyant Tools. Retrieved from https://voyant-tools.org

University of Gothenburg. (2021). What is digital humanities? Retrieved June 3, 2026, from https://www.gu.se/en/digital-humanities/about-us/what-is-digital-humanities

Xəlilli, M. (2019a). Azərbaycan folklorunun yazılı ədəbiyyata təsiri. Bakı: Nurlan.

Xəlilli, M. (2019b). Türk mifoloji düşüncəsi və folklor motivləri. Bakı: Nurlan.